Qəzet 1931-ci ilin aprelindən çıxır

# DƏNİZ

30 oktyabr 2015-ci il
№ 37-38 (8995)
Qiymәti 38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti

... Bu il Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Bu, özlüyündə böyük göstəricidir. Çünki dünyada və bölgədə gedən proseslər göz qabağındadır. Həm bölgədə, həm Avropada böhran yaşanır, iqtisadi, hərbi, siyasi böhran. Belə şəraitdə iqtisadi inkişafa nail olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Bunun bir səbəbi var. O da ondan ibarətdir ki, Azərbaycanda düşünülmüş, müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq.

Azərbaycanda sabitlik təmin edilir. Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib - Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək.

Əlbəttə, müstəqil siyasət aparmağımız bizə bəzi problemlər də yaradır. Çünki bu gün dünyada qütbləşmə göz qabağındadır, bu proses gedir. Böyük ölkələr öz təsir dairələrini genişləndirmək istəyirlər və görəndə ki, dünyada müstəqil, öz sözünü deyən, heç kimdən çəkinməyən, prinsipial ölkə var, əlbəttə, bu, onları qıcıqlandırır. Ancaq bu, bizi narahat etməməlidir. Bu məsələlərə, ümumiyyətlə, mən fikir vermirəm. Çünki mənim üçün əsas məsələ ölkəmizin təhlükəsizliyi, inkişafı və sabitliyidir. Ona görə Azərbaycan bundan sonra da müstəqillik yolu ilə gedəcək.

Bu gün dünyada artıq Azərbaycanın inkişaf modeli haqqında danışılır, qeyd edilir. Həm siyasi sahədə, beynəlxalq münasibətlərin tənzimlənməsində, ölkədaxili proseslərin inkişafında, multikulturalizmlə bağlı bizim təcrübəmiz öyrənilir. Həm də hesab edirəm ki, iqtisadi inkişaf modelimiz də bu gün bir çox ölkələr üçün cəlbedici ola bilər. Çünki biz şaxələndirmə yolu ilə gedirik. Ölkə iqtisadiyyatı artıq çoxşaxəli iqtisadiyyatdır. Qeyri-neft sektoru ümumi daxili məhsulun təxminən 70 faizini təşkil edir.



Biz son illər ərzində aparılan islahatlar nəticəsində bu səviyyəyə qalxa bilmişik. Müstəqillik, müstəqil siyasət, milli maraqlar bizim üçün əsas vəzifədir, əsas məsələdir. Biz bundan sonra da Azərbaycanın seçimini qoruyacağıq, bütün təzyiqlərə, bəzi hallarda təxribatlara baxmayaraq, öz yolumuzdan dönməyəcəyik. Sosial-iqtisadi göstəricilərimiz də bir daha təsdiq və sübut edir ki, biz düzgün yoldayıq.

Doqquz ayda Azərbaycan iqtisadiyyatı 3,7 faiz artmışdır. Nəzərə alsaq ki, biz bunu qeyri-neft sektorunun hesabına əldə etmişik, bu, çox böyük göstəricidir. Ümumiyyətlə, bu gün bölgədə gedən proseslər, qanlı toqquşmalar, iqtisadi tənəzzül, əlbəttə ki, istər-istəməz bizim iqtisadi inkişafımıza da mənfi təsir göstərir. Ondan əlavə, ilin əvvəlindən neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi - 100 dollardan 50 dollara, ondan da aşağı səviyyəyə düşməsi, əlbəttə ki, bizim gəlirlərimizə mənfi təsir göstərmişdir. Ancaq buna baxmayaraq, aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı inkişaf edir. Hesab edirəm ki, indiki şəraitdə 3,7 faiz ən gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft iqtisadiyyatımız 6 faizdən çox artmışdır və bu da dediyim kimi, aparılan islahatların nəticəsidir.

Sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi isə 10 faizdən çox artmışdır. Bu da çox müsbət göstəricidir və onu göstərir ki, Azərbaycanda sənayeləşmə siyasəti uğurla icra edilir. Bir neçə il bundan əvvəl qarşıya qoyduğumuz vəzifə icra edilir. Çünki Azərbaycanın gələcək iqtisadi inkişaf perspektivləri sənaye istehsalı və kənd təsərrüfatı istehsalı ilə bağlı olacaqdır. Ona görə qeyri-neft sənayesinin 10 faizdən çox artması, əlbəttə ki, bizi həm sevindirir, həm də daha da ruhlandırır. Biz bu yolla getməliyik və sənayenin inkişafının stimullaşdırılması üçün əlavə tədbirlər görüləcəkdir.

Azərbaycanda inflyasiya 9 ayda çox aşağı səviyyədədir - 3,7 faiz. Əhalinin pul gəlirləri isə 5,8 faiz artıb. Beləliklə, hər il olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Bu da o deməkdir ki, əhalinin real gəlirləri ildən-ilə artır. Baxmayaraq ki, yenə də demək istəyirəm, bu il həm ölkə, həm bölgə üçün ağır il olaraq qalır.

Ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulub. Onlardan 9 milyardı daxili, 7 milyardı xarici sərmayədir. Bu da çox gözəl göstəricidir. Çünki bu gün dünyada maliyyə və likvidlik qıtlığı yaşanır. Bir çox ölkələr öz ölkələrinə daha çox investisiyalar cəlb etmək üçün çalışırlar və o cümlədən Azərbaycan. Biz də əsas vəsaitimizi ölkəmizə qoyuruq. Eyni zamanda, xarici investorlar üçün də Azərbaycan cəlbedici ölkə kimi tanınır. Biz çalışmalıyıq ki, investisiya iqlimini daha da yaxşılaşdıraq və bu sahədə əlavə tədbirlər görüləcəkdir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*1 noyabr Milli Məclisə seçkilər günüdür*

## Ən layiqli namizədlərə səs verəcəklər

**Azərbaycanda seçkilər prosesi ildən-ilə təkmilləşir, şəffaflıq tam mənada təmin edilir və insanlar öz iradələrini azad şəkildə ifadə edə bilirlər. Azərbaycanda seçki prosesi Avropa standartlarına tamamilə cavab verir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Noyabrın 1-də gənc və müstəqil Azərbaycanımızda hakimiyyətin ikinci vacib qolunun tərkibini müəyyənləşdirəcək parlament seçkiləri keçiriləcək. Səs vermək hüququ olan hər bir ölkə vətəndaşı seçki məntəqələrinə gedərək inandığı namizədə onun üçün həlledici ola biləcək səsi ilə dəstək verəcək. Şəffaflıq, ədalətlilik və obyektivlik demokratik seçkilərin əsas şərtləri olduğuna görə, növbəti - Milli Məclisə bu dəfəki seçkilərin də demokratik və şəffaf şəkildə keçməsi üçün ölkədə bütün zəruri tədbirlər görülüb.*

1995-ci ildə qəbul edilmiş müstəqil dövlətimizin ilk Konstitusiyanın maddələrinə əsasən, xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və müraciət etmək hüququ yoxdur.

Ümummilli lider Heydər Əliyev hələ 1999-cu ildə bələdiyyə seçkiləri ilə əlaqədar xalqa müraciətində demokratik seçkilərin keçirilməsinin məqsəd olduğunu bildirirdi: "Biz seçkiləri müsbət qiymət almaq üçün keçirmirik. Biz özümüz demokratiyanı, sərbəst seçkiləri Azərbaycanın dövlət quruculuğunun strateji yolu kimi qəbul edərək və nəzərə alaraq bu seçkilərin tam demokratik, sərbəst, azad keçirilməsinə nail olmalıyıq".

Ümummilli liderin həmin müraciətindən on altı il ötür və bu müddət ərzində Azərbaycanda baş tutmuş



bütün seçkilərin nəticələri xalqın demokratiya prinsiplərinə sadiq olduğunu təsdiqlədi. Seçki sisteminin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər, o cümlədən, qanunvericiliyin təkmilləşdirilməsi isə Azərbaycanda formalaşdırılan demokratik seçki mühitinin daha da möhkəmləndirilməsinə xidmət edir.

Həyatda hər bir insanın mövqeyi olmalıdır. Amma insanda mövqenin mövcudluğu əsas şərt deyil, əsas onun vaxtında ortaya qoyulmasıdır!

Həyatının davamlı şəkildə yaxşılaşmasını istəyən hər bir Azərbaycan vətəndaşı təbii ki, bu seçkilərə də böyük inamla gedəcək. Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə ifadə etsək: "Azərbaycan daha da güclü ölkə olmalıdır. Biz qüdrətli Azərbaycan dövləti qururuq və əminəm ki, quracağıq. Bütün hədəflərə çatmaq üçün bizim müstəqil siyasətimiz davam etməlidir. Xalq bu siyasəti dəstəkləyir."

Bütün seçkilərdə birqayda olaraq fəal iştirak edən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin işçiləri də noyabrın 1-də seçki məntəqələrinə böyük həvəslə gedəcək, xalqımızın ən layiqli övladlarına səs verəcəklər.

**Rasif TAHİROV**

## TƏBRİK EDİRİK!

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il oktyabrın 21-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Azərbaycanda həmkarlar hərəkatının inkişafındakı xidmətlərinə görə Vətənin yüksək mükafatlarına layiq görülənlər arasında Azərbaycan Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələri də var. Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri **Səməd Oysar oğlu Allahverdiyev 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni,** Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Təşkilat şöbəsinin müdiri **Ənvər Əsgər oğlu Əliyev,** baş mühasibi **Həşim Xalıq oğlu Xalıqov** və Xəzər Dəniz Neft Donanması Həmkarlar İttifaqı Komitəsi sədrinin müavini **Şahmərdan Səhralı oğlu Rüstəmov "Tərəqqi" medalı** ilə təltif edilmişlər.

Təbrik edirik!



# Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Son illərdə Azərbaycan Respublikasının tranzit potensialının artırılması istiqamətində bir sıra irimiqyaslı layihələr həyata keçirilmişdir. Belə ki, Xəzər hövzəsində ən böyük liman olan yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı Gəmiqayırma Zavodu fəaliyyətə başlamış, Bakı-Böyük Kəsik dəmir yolunun yenidən qurulması və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası reallaşmaqdadır.

Azərbaycanda bir neçə beynəlxalq hava limanının tikintisi, yeni təyyarə və gəmilərin alınması, müasir avtomobil yolları şəbəkəsinin yaradılması ölkəmizin nəqliyyat infrastrukturunun güclənməsində mühüm rol oynamış və tranzit daşımalarda iştirak imkanlarını genişləndirmişdir.

Ölkənin nəqliyyat sektorunda icra edilən layihələrlə yanaşı, Azərbaycan Respublikasının ərazisindən keçən tranzit dəhlizlərin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, həmin dəhlizlərə əlavə tranzit yük axınlarını cəlb etmək istiqamətində bir sıra tədbirlərin görülməsi, o cümlədən yükdaşımaların keyfiyyətinin yüksəldilməsi, yüklərin çatdırılma müddətinin və nəqliyyat xərclərinin azaldılması da vacibdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasında dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması sahəsində vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhədkeçmə prosedurlarının və daşıma proseslərinin asanlaşdırılması, habelə bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılsın.

2. "Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. "Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının tərkibi" təsdiq edilsin (əlavə olunur).

4. Azərbaycan Respublikasının ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipi tətbiq olunsun.

5. Azərbaycan Respublikasının ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiqi üzrə vahid dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasına həvalə edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi:

7.1. dəmir yolları və dəniz nəqliyyatı ilə tranzit yükdaşıma xidmətlərinin, habelə tranzit yüklərlə bağlı liman qurğularının istismarı, yükaşırma və dəniz limanında göstərilən digər xidmətlərin tariflərinin və həmin tariflər üzrə güzəştlərin müəyyən edilməsi qaydasını iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası ilə birlikdə ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yükdaşımalarla bağlı özündə yükdaşımaların vahid tariflərini, sərhədkeçmə prosedurlarını, yükdaşımalar üzrə daşıma qaydalarını və şərtlərini, o cümlədən müqavilələrin şərtlərini və bağlanma qaydasını, Azərbaycan Respublikasının dövlət sərhədindən keçmə zamanı inzibati prosedurlara dair elektron müraciətlərin qəbulu və yüklərin daşınması sahəsində müqavilələrin elektron üsullarla bağlanması imkanlarını, yüklərin izlənməsi və daşıma prosesləri ilə əlaqədar digər məsələləri əks etdirən elektron portalın yaradılmasını təmin etsin.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

9. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının cari fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyi tərəfindən həyata keçirilir.

10. Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası Azərbaycan Respublikasında dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması sahəsində görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə ildə iki dəfə məlumat təqdim olunmasını təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 21 oktyabr 2015-ci il*

## Koordinasiya Komitəsinin iclası keçirildi

**Oktyabrın 13-də Bakıda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM) inkişafı üzrə Koordinasiya Komitəsinin iclası keçirildi. İclasda Azərbaycan, Türkiyə, Gürcüstan və Qazaxıstanın dəmir yollarının, Bakı, Batumi və Aktau limanlarının, habelə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərləri iştirak edirdi.**



Müzakirələrdən sonra TBNM üzrə daşımaların iştirakçıları Beynəlxalq Konsorsium yaradılması haqqında razılığa gəldilər. Tərəflər Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə birbaşa dəmir yolu-bərə marşrutu üzrə hərəkət edəcək "Nomad Express" konteyner qatarının operatorlarını təsdiq etdilər. Bunlar "KTZ Express" SC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Karvan Logistics" MMC və "Trans Caucasus Terminal" MMC şirkətləridir. Operatorlar noyabrın 1-nə qədər Konsor-



sial Razılaşma hazırlayaraq imzalamalı və bu barədə Koordinasiya Komitəsinə məlumat verməlidirlər.

İclasda nəqliyyat şirkətləri arasında "Nomad Express" konteyner qatarının buraxılması üzrə qarşılıqlı fəaliyyət Texnologiyası da təsdiq edildi. Bu sənəd logistika operatorları, daşıma şirkətləri, dəniz limanları və yardımçı nəqliyyat infrastrukturları arasında qarşılıqlı fəaliyyət qaydalarını tənzimləyir.

Tədbirdə həmçinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun və "Nomad Express" konteyner qatarının təbliğatı məqsədilə Çində və Avropa ölkələrində Roud-şou adlı reklam kampaniyasının təşkil edilməsi, birgə tədbirlər planının noyabrın 1-nə qədər Koordinasiya Komitəsinə təqdim olunması qərara alındı.

## "Azərbaycan Respublikasının tranzit potensialının artırılması perspektivləri"

**Azərbaycan Dəmir Yolları özünün 135 illik yubileyini və peşə bayramını qeyd etdi. Bu əlamətdar tarix münasibətilə oktyabrın 13-də Bakıda "Azərbaycan Respublikasının tranzit potensialının artırılması perspektivləri" mövzusunda beynəlxalq konfrans keçirildi.**

Konfransın işində Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov, «Azərbaycan Dəmir Yolları» QSC-nin sədri Cavid Qurbanov, «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin sədri Rauf Vəliyev, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov, «Rusiya Dəmir Yolları» ASC-nin vitse-prezidenti Salman Babayev, «Qazaxıstan Dəmir Yolları» SC-nin prezidenti Askar Mamin, Ukrayna Dövlət Dəmiryol Nəqliyyatı Administrasiyasının baş direktoru Aleksandr Zavqorodniy iştirak etdilər.

İştirakçılar Azərbaycan dəmiryolçularını təbrik edərək, çətin və məsuliyyətli fəaliyyətlərində uğurlar arzuladılar.

Konfransda «Azərbaycan Dəmir Yolları - yeni inkişaf yolu", "Xəzər dənizinin Qərb sahili üzrə marşrutun üstünlükləri", "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin gələcəyi", "Bakı-Qars birləşdirici xətti: Gözləntilər və perspektivlər" və s. mövzularda məruzələr dinlənildi.

«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin sədri Rauf Vəliyev "Regional nəqliyyat-logistika infrastrukturunun inkişafında AXDG-nin rolu" məruzəsi ilə çıxış edərək, Gəmiçiliyin imkanları və inkişaf perspektivləri barədə ətraflı məlumat verdi. O qeyd etdi ki, Xəzər Dəniz Gəmiçiliyinin strateji hədəfləri sırasında TRASEKA nəqliyyat dəhlizindən







optimal istifadə, Avropa ilə Asiya arasında körpü yaradaraq effektiv və təhlükəsiz yükdaşımaların təmin olunması çox önəmli yer tutur.

Rauf Vəliyev ölkədə qeyri-neft sektorunun inkişafında nəqliyyat sahəsinin mühüm rolundan, daxili və beynəlxalq daşımaların artırılması, respublikamızın tranzit potensialının və rəqabət qabiliyyətinin yüksəldilməsi kimi vəzifələrin icrasında dövlətimizin dəstəyindən danışdı, nəqliyyatçıların, o cümlədən dənizçilərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daimi diqqətini hiss etdiklərini vurğuladı.

Sonda konfrans iştirakçıları mətbuat nümayəndələrinin suallarına cavab verdilər.

*Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası haqqında Əsasnamə

## 1.Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası (bundan sonra - Koordinasiya Şurası) tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunmasını və yüksək keyfiyyətlə daşınmasını təmin etmək məqsədi ilə yaradılmış kollegial icra hakimiyyəti orqanıdır.

1.2. Koordinasiya Şurası mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi və fiziki şəxslər tərəfindən dəmir yolları və dəniz nəqliyyatı ilə tranzit yükdaşıma, tranzit yüklərlə bağlı liman və nəqliyyat-ekspedisiya xidmətləri göstərilməsinə görə tariflərin dövlət tənzimlənməsini həyata keçirir, bu sahədə daşıma prosesinin bütün iştirakçılarının, o cümlədən sərhədkeçmə prosedurlarını həyata keçirən dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini təmin edir.

1.3. Koordinasiya Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.4. Koordinasiya Şurası öz fəaliyyətini mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, habelə hüquqi və fiziki şəxslərlə əlaqəli həyata keçirir.

## 2. Koordinasiya Şurasının vəzifələri

2.0. Koordinasiya Şurasının vəzifələri bunlardır:

2.0.1. tranzit yüklərlə bağlı vahid tarif siyasətinin həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə aşağıdakı sahələrdə tariflər müəyyən etmək:

1. dəmir yolu ilə tranzit yüklərin daşınması;

2. dəniz nəqliyyatı ilə tranzit yüklərin daşınması;

3. tranzit yüklərlə bağlı liman qurğularının istismarı, dəniz terminalları tərəfindən yükaşırma və dəniz limanında göstərilən digər xidmətlər;

4. bu Əsasnamənin 2.0.1-ci yarımbəndinin 1-ci - 3-cü abzaslarında göstərilən xidmətlər üzrə nəqliyyat-ekspedisiya xidmətləri.

2.0.2. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımaların bütün iştirakçılarının qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsini təmin etmək;

2.0.3. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımaların ahəngdarlığının, səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsinin təmin edilməsi üçün tədbirlər görmək;

2.0.4. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşıma müddətlərinin azaldılması, yükdaşımalar üzrə daşıma qaydalarının, şərtlərinin və prosedurlarının şəffaflaşdırılması, asanlaşdırılması və sadələşdirilməsi üzrə təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.5. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşıma müqavilələrinin bağlanması prosedurlarının şəffaflaşdırılması, asanlaşdırılması, elektronlaşdırılması və bu sahədə "bir pəncərə" prinsipinin tətbiqi məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsini təmin etmək:

1. tranzit yükün daşınması ilə əlaqədar müqavilənin bağlanması üçün daşıyıcılar və ya müştərilərdən birbaşa və ya ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları xidmətləri göstərən nəqliyyat müəssisələri vasitəsilə daxil olmuş müraciətlərin (o cümlədən elektron müraciətlərin) qəbulunu;

2. ölkə ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması şərtləri (vahid tariflər, müddətlər və s.) barədə məlumatın daşıyıcı şirkət və ya müştərilərə verilməsini;

3. daxil olmuş müraciətlərin koordinasiyası (razılaşdırılması) məqsədi ilə onların dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları, dəniz terminalları və nəqliyyat-ekspedisiya xidmətləri göstərən nəqliyyat müəssisələrinə göndərilməsini;

4. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları, dəniz terminalları və nəqliyyat-ekspedisiya xidmətləri göstərən nəqliyyat müəssisələri ilə daşıyıcılar və ya müştərilər arasında tranzit yüklərin daşınması ilə bağlı razılaşdırılmış müqavilələrin bağlanması üçün şərait yaradılmasını;

5. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində bağlanmış bütün müqavilələrin qeydiyyatının aparılmasını və tranzit yüklərin dövlət sərhədindən keçirilməsi üçün qeydiyyata alınmış belə müqavilələr haqqında məlumatların, habelə tranzit yükdaşımalarla bağlı daşıma sənədlərinin sərhəd xidməti və gömrük orqanlarına göndərilməsini;

6.tranzit yüklərin daşınması ilə bağlı bağlanmış müqavilələrin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları, dəniz terminalları və nəqliyyat-ekspedisiya xidmətləri göstərən nəqliyyat müəssisələri tərəfindən keyfiyyətli icrasının əlaqələndirilməsini;

7. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiqinin prosedur qaydalarının müəyyən edilməsini.

2.0.6. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə daşınan tranzit yüklərin Azərbaycan Respublikasının dövlət sərhədindən (sərhəd və gömrük nəzarətindən) keçməsi prosedurlarının asanlaşdırılması, şəffaflaşdırılması və elektronlaşdırılması məqsədi ilə bu sahədə tranzit yükdaşıma fəaliyyətini müvafiq dövlət orqanları ilə əlaqələndirmək;

2.0.7. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində nəqliyyat müəssisələrinin, daşıyıcıların, ekspeditorların və operatorların qarşılıqlı fəaliyyəti üçün vahid prinsiplərin və şərtlərin müəyyən olunması ilə bağlı təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.8. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində nəqliyyat infrastrukturunun inkişafı, daşıma proseslərini idarəetmə sistemlərinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətində təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.9. tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması və yeni tranzit imkanlarının yaradılması məqsədi ilə təhlillər aparmaq, proqramlar hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.10. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımaların inkişafına maneələrin aradan qaldırılması ilə bağlı təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.11. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrinə uyğun istiqamətlərdə hüquqi aktların layihələrini hazırlamaq və aidiyyəti üzrə təqdim etmək, digər orqanlar tərəfindən hazırlanmış belə layihələrə dair rəy və təkliflər vermək;

2.0.12. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində mövcud infrastruktur obyektlərinin potensialından maksimum istifadə edilməsi ilə bağlı təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.13. tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması, yeni tranzit imkanlarının yaradılması və tranzit yükdaşımaların inkişafına maneələrin aradan qaldırılması məqsədi ilə dövlət orqan və təşkilatları, hüquqi və fiziki şəxslər, habelə xarici dövlətlərin müvafiq qurumları və tranzit təşkilatlar ilə əməkdaşlıq etmək;

2.0.14. Koordinasiya Şurasının qəbul etdiyi qərarların tətbiqinə dövlət nəzarətini həyata keçirmək, yol verilən nöqsanlarla bağlı qanunla müəyyən edilmiş məsuliyyət tədbirlərinin görülməsi üçün aidiyyəti üzrə müraciət etmək;

2.0.15. Koordinasiya Şurasının qəbul etdiyi qərarlarla bağlı şərh vermək;

2.0.16. haqsız rəqabətə şərait yaratmadan ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində tariflər (qiymətlər) üzrə güzəştlər vermək;

2.0.17. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yükdaşıma iştirakçılarının müraciətlərinə baxmaq, onların hüquqlarının müdafiəsi məqsədi ilə tədbirlər görmək, mübahisəli məsələlərin həlli ilə bağlı qərarlar qəbul etmək;

2.0.18. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet saytının yaradılmasını, siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan informasiyanın həmin saytda yerləşdirilməsini və informasiyanın daim yenilənməsini təmin etmək;

2.0.19. ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərini təşviq etmək.

## 3. Koordinasiya Şurasının hüquqları

3.0. Koordinasiya Şurası öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

3.0.1. bu Əsasnamə ilə müəyyən edilən vəzifələrinə uyğun olaraq görülən işlərə nəqliyyat bazarının iştirakçılarını cəlb etmək;

3.0.2. dövlət orqanlarından, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi, habelə fiziki şəxslərdən Koordinasiya Şurasının səlahiyyətlərinə aid olan məsələlərlə bağlı zəruri sənədlər və məlumatlar almaq;

3.0.3. Koordinasiya Şurasının fəaliyyətinə ekspert və məsləhətçilər cəlb etmək;

3.0.4. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrinin icrası ilə bağlı qərarlar qəbul etmək;

3.0.5. Koordinasiya Şurasının qərarlarının yerinə yetirilməsinin monitorinqini aparmaq və nöqsanların aradan qaldırılması üzrə tədbirlər görmək.

## 4. Koordinasiya Şurasının fəaliyyətinin təşkili

4.1. Koordinasiya Şurasının tərkibi (sədri və üzvləri) mərkəzi icra hakimiyyəti orqanlarının, digər dövlət idarə və təşkilatlarının nümayəndələrindən ibarət olmaqla, Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

4.2. Koordinasiya Şurasının sədri aşağıdakı vəzifələri yerinə yetirir:

4.2.1. Koordinasiya Şurasının fəaliyyətinin cari və perspektiv istiqamətlərini müəyyənləşdirir, onun fəaliyyət proqramını təsdiq edir və həyata keçirir;

4.2.2. Koordinasiya Şurasının fəaliyyəti ilə bağlı zəruri olan metodiki sənədləri, aktları, əmrləri, göstərişləri, məktubları və digər sənədləri imzalayır;

4.2.3. Koordinasiya Şurasının fəaliyyətinin təşkili ilə bağlı digər işləri həyata keçirir.

4.3. Koordinasiya Şurası üzvlərinin hüquq və vəzifələri aşağıdakılardır:

4.3.1. Koordinasiya Şurasının iclaslarında və fəaliyyətində iştirak etmək;

4.3.2. Koordinasiya Şurasının iclaslarının gündəliyi, eləcə də gündəliyə daxil edilmiş məsələlər barədə təkliflər vermək;

4.3.3. Koordinasiya Şurasının fəaliyyəti ilə bağlı digər işləri həyata keçirmək.

4.4.Koordinasiya Şurasının cari fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyi (bundan sonra - Katiblik) tərəfindən həyata keçirilir.

4.5. Koordinasiya Şurasının gündəliyinə daxil edilmiş sənədlər adi hallarda 5 gün, təcili olduqda isə 2 gün müddətində Koordinasiya Şurasının üzvlərinə təqdim edilir və onlara Koordinasiya Şurasının iclasında baxılır.

4.6. Koordinasiya Şurasının iclasları aşağıdakı qaydada keçirilir:

4.6.1. Koordinasiya Şurasının iclasları onun üzvlərinin azı dörddə üçü iştirak etdikdə ixtiyarlı sayılır;

4.6.2. Koordinasiya Şurasının iclasları rübdə bir dəfədən az olmayaraq və ya Koordinasiya Şurası sədrinin və ya üzvlərinin müraciətinə əsasən keçirilir;

4.6.3. Koordinasiya Şurasının iclaslarında səsvermə açıq keçirilir və qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, Koordinasiya Şurası sədrinin səsi həlledicidir;

4.6.4. Koordinasiya Şurasının iclaslarında qəbul edilmiş qərarlar protokolla rəsmiləşdirilir, Koordinasiya Şurasının sədri və üzvləri tərəfindən imzalanır. Koordinasiya Şurasının iclaslarında bu Əsasnaməyə uyğun olaraq qəbul edilmiş qərarlar bütün dövlət və yerli özünüidarə orqanları, həmçinin fiziki və hüquqi şəxslər üçün məcburidir;

4.6.5. Koordinasiya Şurasının gündəliyinə daxil edilən məsələlər Koordinasiya Şurasının təsdiq etdiyi iş planı əsasında formalaşır;

4.6.6. Koordinasiya Şurasının gündəliyinə daxil edilmiş məsələlər barədə Koordinasiya Şurasının sədri və ya üzvlərindən biri məlumat verir;

4.6.7. Koordinasiya Şurasının hər bir iclasının reqlamentini, müzakirə olunacaq məsələlərdən asılı olaraq, Koordinasiya Şurasının sədri üzvlərin rəyini nəzərə alınmaqla müəyyənləşdirir.

4.7. Koordinasiya Şurasının iclaslarına dəvət olunan ekspert və məsləhətçilərin yalnız təkliflər vermək və müvafiq məsələlərə rəy bildirmək hüququ vardır.

4.8. Koordinasiya Şurasının iclaslarında baxılan məsələlər barədə məlumat Koordinasiya Şurasının sədri və ya onun razılığı ilə Katiblik tərəfindən kütləvi informasiya vasitələri və Koordinasiya Şurasının rəsmi internet saytı vasitəsilə yayılır.

4.9. Koordinasiya Şurasının yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

*Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli Fərmanı ilə TƏSDİQ EDİLMİŞDİR*

## Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının TƏRKİBİ

**Koordinasiya Şurasının sədri**

Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye naziri.

**Koordinasiya Şurasının üzvləri:**

Aydın Əliyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi
Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
Toğrul Musayev - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Cavid Qurbanov - "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri
Rauf Vəliyev - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri
Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
Taleh Ziyadov - "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Baş direktoru

# Rəqəmlərin dili ilə




**Dəmir yolu nəqliyyatı ilə cari ilin yanvar-sentyabr aylarında 12,9 milyon ton yük, 1,4 milyon sərnişin daşınmış, əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 19,6 faiz və 24,8 faiz azalma müşahidə olunmuşdur.**

Orta hesabla sutkada 452 vaqon yüklənmiş, 451 vaqon isə boşaldılmışdır. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 18,5 min ton, Qərb istiqaməti üzrə 5,2 min ton, Cənub istiqaməti üzrə isə 2,3 min ton yüklənmə işi yerinə yetirilmişdir.

Dəniz nəqliyyatı ilə cari lin yanvar-sentyabr aylarında daşınmış yüklərin həcmi 5,1 milyon ton təşkil etmişdir. Yüklərin 68,2 faizini neft yükləri təşkil etmişdir. Dəniz limanlarında 6,5 milyon ton yükləmə-boşalma işləri həyata keçirilmişdir. Yüklərin 94,3 faizi tranzit yüklər təşkil etmişdir. Cari ilin oktyabr ayının 1-nə kimi limanlarda göndərilmək üçün 94,9 min ton idxal yükləri olmuşdur.

Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan avtomobil nəqliyyatı ilə 102,0 milyon ton yük, 1214,7 milyon sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 7 faiz və 3,6 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 96,2 faizi avtobus, 3,8 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişdir. Yük dövriyyəsi 7 faiz, sərnişin dövriyyəsi isə 3,7 faiz artmışdır.

Metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 3,8 faiz artaraq 162,4 milyon nəfərə çatmışdır.

Hava nəqliyyatı ilə 1,5 milyon və ya 4,3 faiz çox sərnişin daşınmış, daşımaların 99,6 faizi dövlət, 0,4 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 5 faiz artaraq 91 min tona çatmışdır.







Magistral neft kəmərləri ilə 37,74 milyon ton neft nəql edilmişdir. Nəqletmənin 75,7 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və cari ilin yanvar-sentyabr ayları ərzində bu kəmər vasitəsilə 26,29 milyon ton neft ötürülmüşdür. Dövr ərzində BTC kəməri ilə 4,4 milyon tranzit nefti də nəql edilmişdir.

Magistral qaz kəmərləri ilə 15,57 milyard kubmetr qaz nəql edilmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,4 faiz azalma müşahidə olunmuşdur. Qazın həcminin 30,6 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 4,76 milyard kubmetr qaz ötürülmüşdür.

# İçməli su ehtiyatı azalır

**Dünyada içməli su ehtiyatı ildən-ilə azalır. Dünya əhalisi isə içməli su ehtiyatına qənaət etmir. Nəinki qənaət etmir, hətta bəzi regionlarda həyat mənbəyi adlandırdığımız bu gözəl nemətdən ifrat dərəcədə israfçılığa yol verilir.**



CNN-nin yaydığı məlumata görə, bu barədə həyəcan təbili çalan dünya alimləri qeyd edirlər ki, planetdə içməli su çatışmazlığı yaxın gələcəkdə qlobal problemə çevriləcək və bu problem Yer kürəsi əhalisinin artması və iqlim dəyişikliyi səbəbilə daha da dərinləşəcək. Hətta bununla bağlı insanların necə əzab çəkdiyini göstərən şəkillər Kaliforniyanın Lonq Biç sahilindəki "Aquarium of the Pacific" sərgisində nümayiş etdirilib.



Qeyd edilir ki, Birləşmiş Ştatların qərb bölgələrində su problemi hamının diqqətindədir. Lonq Biç Su İdarəsinin işçisi Kevin Veytyer bu problemin artıq bir neçə ildir kəskinləşdiyini deyir. "Bu, Kaliforniya tarixində ən çox quraqlıq olan illərdir".

"Aquarium of the Pacific"in prezidenti Cerri Şubel probleminin yalnız Amerikanın qərbində olmadığını bildirərək deyib: "Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə, dünyanın yarısından çox hissəsi su çatışmazlığından əziyyət çəkir və problem 2025-ci ilə qədər 60 faiz artacaq".

Qeyd edək ki, "Aquarium of the Pacific" otelindəki fotostendlərdə nümayiş etdirilən şəkillər məhşur "National Geographic" jurnalının fotoqrafları tərəfindən çəkilib. Burada Qanq çayı hövzəsindən Afrika ölkələrinin sakinlərinə qədər, dünya boyu su axtaran insanların şəkillərini görmək mümkündür.

Sərgini təşkil edənlərdən Annenberq Fondunun nümayəndəsi Kemil Luri içməli su problemi ilə bağlı deyib: "Haradasa insanların həyatları boyu içməli su dalınca kilometrlərlə yol qət etməsi bizim üçün ağlasığmazdır. Lakin bu hal mövcuddur".

"Milyard illərdir yer kürəsində suyun həcmi dəyişməyib, lakin içməli su ilə duzlu su arasında bu fərq artır və içməli su sürətlə azalır", - deyə Şubel bildirib. Şubel onu da əlavə edir ki, dünya ölkələri birgə işləsə, bu problemi həll etmək mümkün olar.

**E. ABBASOV**

# Ən güclü uğur texnologiyası

## NLP ilə istəyinizə daha tez nail ola bilərsiniz

Dünyanın diqqətini özünə çəkənlərin, siyasət və biznes adamlarının, bir sözlə, uğur qazanmaq istəyən hər kəsin daim müraciət etdiyi bu sehrli güc nədir? İnsan beyni kompyuterdirmi ki, onu istədiyin şəkildə proqramlaşdırasan? İllərlə davam edən fobiyanı, daim narahatlıq törədən daxili səsi, günahkarlıq duyğularını, insanı asılılıqda saxlayan düşüncə tərzini bir neçə seansa, hətta bir neçə dəqiqəyə silməyə qadir olan bu üsullar həqiqətdirmi?

Bəli, ünsiyyətlə siyasət və biznesdə, diplomatiyada inanılmaz nəticələr əldə etmək, sonsuz sayda sözləri cəmi bir dəfə eşidərək və ya oxuyaraq eyni ardıcıllıqla uzun müddət yadda saxlamaq, yalançını bir neçə dəqiqəyə aşkar etmək NLP vasitəsilə mümkündür. NLP-nin dilimizdəki tərcüməsi "Zehin Dili Proqramlaşdırılması"-dır. Bununla insanın zehnini istəyə uyğun proqramlaşdıraraq arzu edilən nəticələrə çatmaq olar. Bu gün ABŞ və Avropada 150-dən çox institut və 2 universitetdə NLP - təhsil, iş dünyası, səhiyyə, fərdi inkişaf, ailədaxili ünsiyyət və terapeya sahələri üçün tədris olunur.

## Mükəmməl performans ilə orta performans arasındakı fərqi yaradan nədir?

1970-ci illərin əvvəlində Kaliforniyada riyaziyyatçı Riçard Bandler və dilçi Con Qrinder müəyyən bacarıqlara sahib olan insanlar ilə bu bacarıqları təkmilləşdirmiş insanlar arasındakı fərqləri araşdırarkən NLP-nin əsasını qoydular. Onların başlanğıcda özlərinə verdikləri sual belə idi: "Hər hansı bir qabiliyyətə malik olan bir adamla, eyni qabiliyyətə malik, amma daha üstün olan digəri arasındakı fərqin səbəbi nədir?" Bandler və Qrinder mükəmməl performansa sahib insanları modelləşdirərək bu performansa digər insanların da çata bilmələri üçün lazımlı metodları işləyib hazırladılar.

Hər bir insan ideal saydığı insan kimi ola bilər. Amma bu, sadə məsələ deyil. Yəni biz gündəlik həyatda görürük ki, eyni şeyləri müxtəlif insanlar edir, amma hamı eyni yerə çata bilmir. Bunun əsasında inanclar, hisslər və davranışlar dayanır. NLP bəzən "mükəmməl elmi... dəyişmə sənəti", "istədiklərini əldə etmə üsulu" adlanır. NLP müxtəlif sahələrdə - elmdə, idmanda, ailədə tətbiq edilə bilər. NLP-də bir sıra modelləmələrdən və texnikalardan istifadə edilir. Bunlar isə iki hipotezə əsaslanır:

1. Xəritə, təmsil etdiyi ərazinin özü deyildir (xəritə hipotezi): Biz bir insan olaraq çox vaxt həqiqəti bilmirik. Yəni bizə ətrafdan çoxlu fikirlər, məlumatlar gəlir və şüurumuz özünə görə bir həqiqət (xəritə) yaradaraq bunları qiymətləndirir. Bizim fikirlərimiz xəritədir və irəliləməmizə əngəl olan da elə çox vaxt bu xəritələrdir.

2. Sistematik proses (həyat və beyin sistemi): Dünya, kainat, insan hamısı mürəkkəb bir sistemdir. Bu sistemlərdən ayrılan təkbaşına bir iş görə bilməyəcəkdir. NLP-də hədəf, "həqiqi xəritə"ni tapmaq deyil, "zəngin xəritə"ni tapmaqdır.

Bir problemin qarşısında nə qədər çox seçim şansı olsa, bu problemi həll etmək daha asan olur. NLP-yə görə hər insan, bütün lazımi mənbələrə malikdir və hər bir insan dəyərlidir. Əgər bir adam, bir işi bacarıbsa, deməli, hamı bacara bilər.

## NLP təkmilləşdirmə üsullarını və keyfiyyəti araşdırır

İnkişaf etmiş insan necə yüksək nəticə əldə etmələrinin səbəbini öyrənir. Çünki bu metodlar, başqa insanların da eyni və ya bənzər nəticələrə nail olması üçün onlara nümunə ola bilər. Bu prosesə modelləşdirmə deyilir. NLP modelləşdirmə prosesində təcrübələrin strukturunun, dəyərlərin və inancların nədən ibarət olduğunu və duyğuların necə əmələ gəlməsini tədqiq edir. Təcrübələr nəticəsində insanın daxili dünyasının necə formalaşması və hadisələrə necə məna verilməsinin öyrənilməsi də NLP-nin tədqiqat sahəsidir. Heç bir hadisə öz-özlüyündə heç bir məna kəsb etmir, ona bu mənanı biz veririk və fərqli insanlar eyni hadisədən fərqli mənalar çıxarırlar.

## NLP ən ünsiyyətcil insanları araşdıraraq insan ünsiyyətinin sistemini qurur

NLP mükəmməl insanları modelləşdirmək yolu ilə praktik vasitə və metodları inkişaf etdirir. Bu vasitələr bir çox sahələrdə istifadə edilməkdədir. Bununla birlikdə NLP yalnız metod və vasitələrdən ibarət deyil. NLP maraq, kəşf və əyləncə çərçivəsinə əsaslanan bir düşünmə formasıdır. NLP tam mənasıyla münasib bir əlaqəni necə qurub davam etdirə bilmək üçün yol göstərir. Bu səbəblə adam əvvəlcə özünə bu sualları verməlidir: Reallaşdırmaq istədiyim şey nədir və fikrimi çatdırmağın ən yaxşı yolu nədir?

Dəyişmək, həyatımızın axarını dəyişdirmək cəsarət tələb edən bir işdir, indiyə qədər etdiklərimizdən imtina edərək yeni üfüqlərə yelkən açmaq ancaq ehtiraslı insanların işidir. Əgər həqiqətən dəyişmək istəyiriksə "mən" olmaqdan imtina edib başqa birinə çevrilməyə hazır olmalıyıq, əgər buna hazır deyiliksə, dərhal NLP ilə maraqlanmaqdan əl çəkməliyik. Bu günə qədər etdiyimiz şeyləri təkrar etsək, eyni nəticələri alarıq, fərqli nəticələr əldə etmək istəyiriksə, fərqli şeylər etməliyik. Bu isə, bu an olduğumuzdan fərqli biri olmamızı tələb edir.

**B. BAYRAMOV**

# Gəmiçilikdə qanvermə aksiyası

**Oktyabrın 21-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də növbəti qanvermə aksiyası təşkil edilmişdi. Gəmiçiliyin strukturuna daxil olan Xəzər Dəniz Neft Donanması və Dəniz Nəqliyyat Donanmasında keçirilən xeyriyyə tədbirində**



**Elmi-Tədqiqat Hematologiya və Qanköçürmə İnstitutunun əməkdaşları tərəfindən götürülən qan əvvəlcə qan bankına toplanacaq, sonra isə qan və qandan hazırlanan preparatlardan hemofiliya, talassemiya və digər xəstəliklərdən əziyyət çəkənlərin müalicəsində istifadə olunacaq.**



Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də yüzlərlə işçinin qoşulduğu belə xeyriyyə tədbirlərinin gələcəkdə də təşkil olunması nəzərdə tutulur.

# "Mars"ın məhvi

**Nə vaxtsa fəlakətə məruz qalmış gəmilərin tapılması o qədər də nadir hadisə deyil. XVI əsrdə koalisiya arasında gedən yeddi illik Şimal müharibəsi dövründə batmış "Mars" İsveç gəmisinin axtarışları yüz illər davam edib. Həmin vaxtlarda o, sadəcə, çox nəhəng gəmi olub: gəminin subasımı 1,8 min ton təşkil edib, onun heyəti 800 nəfərdən ibarət olub, bortunda 107 güclü silah quraşdırılıb. "Mars"ı həmçinin "Müqayisəolunmaz" adlandırıblar, çünki onun analoqu olmayıb.**

Buna baxmayaraq, "Mars"la bağlı ümidlər özünü doğrultmayıb. 1564-cü il martın 31-də gəmi dərhal üç Danimarka gəmisi tərəfindən abordaja (vuruşmaq üçün gəmilərin bir birinə yanaşdırılmasından ibarət qədim dəniz müharibəsi üsulu) götürülüb. Toplardan biri barıtın yerləşdiyi kameraya düşüb və korpusu dağılan gəmi bir neçə dəqiqə ərzində suyun dibinə enib.

"Mars"ı dəfələrlə tapmağa cəhd etsələr də, yalnız 2011-ci ilin sentyabrında Riçard Lundqrenin rəhbərliyi ilə sualtı arxeoloqlar qrupu Eland adası yaxınlığında uğur əldə edə bilib: onlar radarın ekranında batmış gəmiyə məxsus olan tir topası görüblər.

Bu gün Vestervik şəhərciyindəki muzeydə əfsanəvi gəmidən qaldırılmış artefaktlardan ibarət ekspoziya mövcuddur.

**T.DADAŞOV**

# Tankerlər toqquşub

**Yaponiyanın Yamaquti prefekturasının Muçure adası sahillərində iki neftdaşıyan tanker toqquşub.**

"Vakomaru" (2018 tonn) və "Salfa qarland" (3498 tonn) tankerlərinin toqquşması nəticəsində dənizə neft sızması baş verib.

Hadisə yerinə Sahil təhlükəsizlik xidmətinin əməkdaşları cəlb edilib.

Xəsarət alanlar və neft sızmasının miqyası barədə məlumat verilmir.

# Dəniz canlılarını mühafizə etmək lazımdır ki, nəsilləri kəsilməsin

**XX əsrdə sənayenin sürətli inkişafı zəhərli maddələrin, tullantıların miqdarının kəskin artması dünya okeanında yaşayan canlılar üçün əsl fəlakətə çevrilmişdir. Atmosfer təbəqəsi ilə yanaşı, hidrosferin zəhərli tullantılarla çirklənməsi bəşəriyyəti narahat edən ən ciddi məsələlərdəndir. Belə bir vəziyyət dəniz məməlilərini qorumaq, mühafizə etmək zərurətini gündəmə gətirib. 1986-cı ildən isə hər il fevralın 19-u Ümumdünya Su Məməlilərinin Mühafizəsi günü kimi qeyd olunur.**

Suda yaşayan canlılar aləmi ciddi təhlükə ilə qarşılaşmış, onların bir çoxunun nəsli kəsilmək üzrədir. Suda yaşayan məməlilər kimi balinalar, delfinlər və suitilər digər su canlılarına nisbətən azlıq təşkil edirlər. Onların nəslinin daha tez kəsilmək qorxusu vardır. Artıq su məməlisi olan Beyci çay delfinləri və Karib suitilərinin nəsli kəsildiyi ehtimal olunur. 1979-cu ilə qədər balinaların ovlanmasına heç bir qadağa yox idi. Lakin sonralar balinaların ovlanmasına qoyulan məhdudiyyət onların nəslinin kəsilməsinin qarşısını aldı. Bu gün iri balinaların ovlanması və balina ətinin ticarəti qanunla qadağandır. Problemin bir hissəsi həllini tapsa da, ortaya çıxan anormal hallar narahatedicidir. Ancaq 2010-2011-ci illərin qış aylarında planetdə heyvanların kütləvi müəmmalı ölümü qeydə alındı. 2010-cu ildə İngiltərənin sahillərində 25 min yengəc - qısa quyruqlu xərçəng özünü dənizdən ataraq öldü. Sonrakı il onların sayı 40 minə çatdı. Yeni Zelandiya sahillərində yüzlərlə balina sahilə atılaraq məhv oldu. Özlərini sahilə atıb öldürən balıqlar, balina və delfinlər dəniz sakinlərinin müəmmalı ölümü kimi dəyərləndirildi.

Xəzərdə belə hallar müşahidə olunmasa da, dəniz fauna və florasının zənginliyinə görə özünəməxsus unikallığı ilə fərqlə-



nir. Bura nadir və qiymətli balıq növləri, yeganə məməli heyvan Xəzər suitisi dünya suitilərinin ən kiçik növü kimi "Qırmızı Siyahı"ya və "Ginnesin Rekordlar kitabı"na daxil edilib. Eyni zamanda "Qırmızı Kitab"a düşən kələmə, ilanbalığı, qızılxallı kimi balıq növlərinin də vətəni Xəzərdir. Dünyadakı nərə balıqlarının 85-90 faizinin yaşadığı Xəzər dənizi endemik növlərlə zəngin olan su hövzəsidir.

Lakin çirkab sularının okeanlara, dənizlərə axıdılması suda turşuluq dərəcəsini artırmaqla canlıların sürətlə azalmasına səbəb olur. Kimyəvi maddələr suyun və qruntun tərkibini dəyişdirir. Bu da öz növbəsində su flora və faunasına öldürücü təsir göstərir və orada olan canlıların məhvinə səbəb olur. Beş dövlətlə həmsərhəd olan Xəzərə axıdılan tullantıların, çirkab sularının miqdarını, dənizin faunasına hansı dövlətin daha çox ziyan vurmasını dəqiq hesablayan yoxdur. Aydın olanı isə odur ki, Xəzəryanı dövlətlərin içərisində ekoloji problemlərin həllinə Azərbaycan qədər vəsait sərf edən ikinci dövlət yoxdur. Nəzərə alsaq ki, Xəzərə tökülən çayların bir qisminin mənbəyi qonşu ölkələrdən başlanır, onda zəhərli suyun xaricdən gəlmə ehtimalı da böyükdür. Son məlumatlara görə çaylar vasitəsi ilə Xəzər dənizinə ildə 75 mln. ton neft tullantıları axıdılır və bunun 95 faizi Volqa çayının payına düşür.

Qeyd edək ki, Xəzərlə həmsərhəd olan beş ölkədən Azərbaycan istər balıq ovu kvotasının mənimsənilməsi, istər su bioresurslarının artırılması, istərsə də dənizin ekologiyasının qorunmasında xüsusilə fərqlənir. Bu məsələ 2008-ci ildə Xəzəryanı ölkələrin - Azərbaycan, Qazaxıstan, İran, Rusiya, Türkmənistanın nümayəndələrinin də iştirak etdiyi Aşqabad şəhərindəki toplantısında geniş müzakirə olunmuşdur. Təkcə 2010-cu ildə Azərbaycan Prezidenti Xəzərin çirklənməsinin qarşısını



almaq məqsədilə iki sərəncam imzalamışdır. Bu gün Azərbaycan BMT-nin Ətraf Mühit, Sənayenin İnkişafı proqramları, NATO, ATƏT, Qlobal Ekoloji Fond, Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Ümumdünya Vəhşi Təbiət Fondu kimi böyük təşkilatlarla əməkdaşlıq edir.

Ekosistemlərin və biomüxtəlifliyin təbii mühitinin qorunub saxlanması və ətraf mühitin mühafizəsi müasir dövrdə ən ciddi məsələlərdən biri kimi qiymətləndirilir. Hər il fevralın 19-da dünyanın əksər ölkələrində su canlılarının müdafiəsi məqsədilə aksiyalar təşkil olunur. Bəşəriyyət dərk edir ki, okean və dənizlərdə canlı həyatın yox olması insanlar üçün də problem yaradacaq. Belə çıxır ki, biz dənizlərdəki canlı mühiti qorumaqla özümüzü də problemlərdən sığortalayırıq.

**E. HADIYEV**

# Təyyarə ilə uçmaqdan qorxursunuzsa...

**Bəzi adamlar təyyarə ilə uzun səfərlərdən qorxurlar. Belə səfərlər insanı fiziki cəhətdən də yorur. Bəs qorxunun təsirindən necə çıxmaq olar?**

İlk növbədə təyyarədə yağlı yeməklər yeməməyə və spirtli içkilər qəbul etməməyə çalışın. Çətin vəziyyətdə qalmaq istəmirsinizsə, yüngül yeməklərlə kifayətlənin, hətta təyyarəyə minməzdən əvvəl də ağır yeməklərdən uzaq durun.

Təyyarə şişkinlik və qaz problemlərinə səbəb ola bilər. Təyyarədə ayaqlarınızı isti saxlayan ayaqqabı və ya corab geyinin.

Uzun müddət hərəkətsiz qalmaq adamı yorur. Arabir ayağa qalxın və ayaqlarınızı hərəkət etdirin. Və ya təyyarəyə minməzdən əvvəl hava limanında gəzişin.

Təyyarə hündürlüyə qalxdıqda təzyiq dəyişir. Bədən bu təzyiq fərqinə uyğunlaşmaqda çətinlik çəkir. Aradakı təzyiq fərqi bədənin fərqli bölgələrində hiss edilməklə yanaşı, daha çox qulaqlarda özünü





göstərir. Orta qulaq tunellə burun boşluğuna açılır və qulaq pərdəsinin xarici tərəfindəki təzyiqlə daxilindəki təzyiqi tarazlaşdırmağa çalışır. Təyyarə səyahətlərində əsasən qulaq daxilindəki təzyiq aşağı olur və qulaq pərdəsi içəriyə doğru paraşüt kimi çökə bilər. Qulaq pərdəsindəki itələnmə və çəkilmə artıq olduğu zaman tıxanıqlıq hissi ilə yanaşı, ağrı da hiss edilə bilər. Qazlı içkilər bu problemləri daha da artırdığı üçün onlardan istifadə etmək məsləhət deyil. Uçuş zamanı daha çox hərəkət etmək və qazsız su içmək lazımdır. Ən əsası isə xəstəliyi olanlar uçuşdan əvvəl mütləq həkimə müraciət etməlidirlər.

Qrip, soyuqdəymə, tənəffüs yolu infeksiyaları kimi hallarda təzyiq və ağrı daha çox hiss edilir. Düzgün nəfəs ala bilməyəndə burun və orta qulaq boşluğuna kifayət qədər hava daxil olmur. Ona görə də təzyiq dəyişikliyinə uyğunlaşmaq daha gec baş verir.

Təyyarə səfəri bitdikdən sonra hiss edilən ağrılar adətən, bir neçə saat ərzində yox olur. 10-12 saata sakitləşməyən ağrılar isə təhlükə işarəsi ola bilər. Belə hallar yaşanarsa, mütləq qulaq-burun-boğaz mütəxəssisinə müraciət etmək lazımdır.

## "Müsəlmanlar Avropanın hakimi olacaqlar"

**Əsl adı Vanqeliya Pandeva olan Vanqa 16 yaşında şiddətli fırtına və ildırım vurması nəticəsində görmə qabiliyyətini itirib. O vaxtdan isə Vanqa özündə gələcəyi görmə duyğusunun yarandığını hiss etməyə başlayıb.**

**Ömrünün böyük hissəsini Bolqarıstanda keçirən Vanqa bolqar hökuməti tərəfindən nəzarətə götürülüb və verdiyi bütün proqnozlar dövlət tərəfindən kağıza köçürülüb. Vanqanın 2015-ci il və sonrakı dövr üçün proqnozlarını təqdim edirik.**

2015-ci ildə dünyada başlayan müharibə üzündən Şimal yarımkürəsində yaranan radioaktiv qalıqlar heyvan və bitkilərin yox olmasına səbəb olacaq. Nüvə döyüşündən sağ çıxan avropalılar isə müsəlmanlar tərəfindən başladılacaq kimyəvi hücumla qarşı-qarşıya qalacaq.

2018-ci ildə dünyada yeni super güc Çin olacaq.

2023-cü ildə Yer kürəsinin orbitində müəyyən dəyişiklik yaşanacaq.

2026-cı ildə Avropa əhalisi tükənmə nöqtəsinə gələcək.

2028-ci ildə Yeni bir enerji növü inkişaf etdiriləcək. Yavaş-yavaş aclığın qarşısı alınacaq. İçində insan olan bir kosmos gəmisi Veneraya göndəriləcək.

2033-cü ildə Qütbdəki buzlaqlar əridikcə Yer kürəsində suyun səviyyəsi artacaq.

2043-cü ildə müsəlmanlar Avropanın hakimi olacaqlar.

2046-cı ildə bütün bədən orqanları çıxarılaraq yenidən bərpa ediləcək. Xəstə orqanın yerinə yenisinin qoyulması ən çox istifadə edilən və ən sadə müalicə üsulu olacaq.

2076-cı ildə sinifsiz bir cəmiyyət nizamı təqdim edən kommunizm bütün dünyaya hakim olacaq.

2084-ci ildə Təbiət yenidən canlanacaq.

2088-ci ildə insanların saniyələr ərzində yaşlanmasına səbəb olan yeni bir xəstəlik yaranacaq.

2111-ci ildə insanlar proqram qurğusu ilə çalışıb yaşayan robotlara çevriləcək.

Qeyd edək ki, şok proqnozları ilə dünyanın daim diqqət mərkəzində olan Vanqa rus kəşfiyyat rəhbərləri, bir çox tanınmış ölkə liderləri və o cümlədən, İkinci Dünya müharibəsi zamanı Adolf Hitler tərəfindən şəxsən ziyarət edilib. Vanqa 1996-cı ildə 84 yaşında Bolqarıstanda dünyasını dəyişib.

# Yuxuda kəşf edilmiş ixtiralar



**Bir çox ixtiralar məhz yuxuda kəşf edilib. Onlardan bəzilərini diqqətinizə çatdırırıq.**

### Albert Eynşteynin işıq sürəti

Böyük fizik Eynşteyn yeniyetmə vaxtı yuxuda görüb ki, xizəkdə qarlı yarğana düşür. Xizək o qədər böyük sürətlə hərəkət edib ki, ətrafda hər şey bir rəngdə görünüb.

Bundan sonra Eynşteyn işıq sürəti zamanı hansı proseslərin baş verdiyi haqda düşünməyə başlayıb və bu da onun elmi karyerasının başlanğıcı olub. Məşhur nisbilik nəzəriyyəsi isə alimin bütün həyatını həsr etdiyi tədqiqatların yalnız "əlavə effektidir".

### Nils Borun atom modeli

Danimarkalı fizik Nils Bor yuxuda özünü Günəşdə oturmuş vəziyyətdə görüb və bu zaman bütün planetlər onun ətrafında nazik simlə dövr edib. Alim atom modelinin necə qurulduğunu bu yolla anlayıb.

### Mendeleyevin dövri cədvəli

Məşhur rus alimi Dmitri Mendeleyev güman edib ki, 65 əsas kimyəvi element özlərinin atom çəkisindən asılı olaraq müəyyən qaydada düzülməlidir. Amma bu qanunauyğunluğu heç cür müəyyən bir şəklə sala bilməyib. Kimyaçı bu məsələnin üzərində düşünərək yuxuya gedib və yuxuda bütün elementlərin öz yerində dayandığı cədvəli görüb.

Oyananda dərhal yuxuda gördüyü cədvəli kağız üzərinə köçürüb. Elementlərin yeri o qədər dəqiq olub ki, bütün alimlər cədvəlin düzgün olduğunu təsdiq ediblər.

### Fridrix Avqust Kekule benzolunun molekullarının strukturu

Almaniyalı kimyaçı Kekule maddələrin molekullarındakı atomların əlaqəsi ilə məşğul olub. Bir dəfə onunla müəmmalı hadisə baş verib.

"Mən, adəti üzrə, boşalmış küçələrdə hərəkət edən sonuncu avtobusda evə qayıdırdım. Mürgülədim və gözlərim qarşısında atomlar canlandı. Bu kiçik hissəciklər həmişə hərəkətdə idi. Amma mən gördüm ki, tez-tez kiçik atom bir yerə birləşir, böyük atom iki kiçik atomla birləşir, daha böyük atom rəqsdə dövrə vurmağı davam etdirərək üç və hətta dörd kiçik atomla birləşir. Gördüm ki, böyük atomlar zəncir formalaşdırır və yalnız zəncirin sonunda kiçik atomları özünə birləşdirir. Məni yuxudan konduktorun səsi oyatdı: "Klephem küçəsi". Növbəti gecəni mən öz yuxumun təsiri altında eskizlər çəkərək keçirdim" - alim qeyd edib.

Bəli, sonralar üzvi kimyanın inkişafında mühüm rol oynamış struktur nəzəriyyəsi belə kəşf edilib.

### Otto Levinin əsəb impulslarının kimyəvi ötürülməsi nəzəriyyəsi

Avstriya-alman və amerikalı farmakoloq Otto Levini neyrotəbabətin banisi hesab edirlər. Onun əsəb hüceyrələrinin kimyəvi səviyyədə ötürülməsi haqqında nəzəriyyəsi olub.



Levi 1920-ci ildə bu nəzəriyyəni sübut edən eksperimenti təfsilatı ilə təsvir edən iki yuxu görüb. Bu isə alimin öz mülahizələrini düzgün yola istiqamətləndirməyə kömək edib və o, 1936-cı ildə tibb sahəsində Nobel mükafatına layiq görülüb.

### Srinivas Ramanucanın düsturu

Görkəmli riyaziyyatçı Srinivas Ramanucan 1887-ci ildə kasıb hindli ailəsində doğulub. Gənc Ramanucan riyaziyyatla maraqlansa da heç bir xüsusi təhsil almayıb. Bir dəfə isə yuxuda ona riyazi düstur göstərən ilahə görür...

Ramanucan düsturu əvvəlcə hind alimlərinə göstərsə də, onlar bu düsturdan baş açmayıblar. Belə olan təqdirdə, o, Kembric Universitetində ədədlər nəzəriyyəsi və riyazi analiz sahəsində tanınmış alim Qodfri Hardiyə məktub yazır.

Bundan sonra Ramanucanı Kembricə dəvət edərək dərhal professor kimi universitetə işə qəbul edirlər. Tezliklə onu London Kral Cəmiyyətinin üzvü seçirlər. O, öz düsturu ilə izah edilmiş və əvvəllər riyaziyyatçılara məlum olmayan çoxlu sayda elmi əsərlər dərc edib...

# Məşhur vunderkindlər

***Vunderkind fövqəladə istedada malik olan uşaqlara deyilir. Belə uşaqlar başqalarının on illər sərf etdiyi işi bir neçə günə öyrənir. Elm isə bu haqda heç bir dəqiq nəticə əldə edə bilmir. Belə ki, onlara nəyisə öyrənmək lazım olmur, onlar sadəcə olaraq sanki unutduqları şeyləri xatırlayırlar. Qeyd edək ki, vunderkindlər çox qısa həyat sürür və bir çoxu 7 yaşından sonra bacarıqlarını itirirlər.***

Fridriks Heynehen 1721-ci ildə Almaniyada doğulub. O, anadan olandan bir neçə saat sonra danışmağa başlayıb. Bir yaşında olanda xristianlığın müqəddəs kitabı Bibliyanın bir hissəsi olan Əhdi-Ətiqin məzmununun nə olduğunu bilib. 2 yaşında bütün Bibliya tarixini bilən bu istedadlı uşaq yalnız doğma dilində yox, həm də fransız və latın dilində danışıb. Bu vunderkind bir müddət sonra xəstələnib və dörd yaşında vəfat edib.

Karl Fridriks Kauss (1977-1885) hələ üç yaşı tamam olmamış beynində mürəkkəb riyazi hesablamalar apara bilirdi. Yaşa dolduqca özünün möcüzəli hesablama bacarığını itirsə də, buna baxmayaraq böyük riyaziyyatçı olub.

Con Stuart Mill (1806-1873) ingilis filosofu və iqtisadçısıdır. O, üç yaşında yunan dilində danışmağa başlayıb. Altı yaşında ikən Ksenofortu, Herodotu, Ezopu orijinaldan oxuyub.

Anadangəlmə kor olan Amerikalı Tom Viqqins artıq dörd yaşında böyük ustalıqla fortepianoda çalıb. Maraqlısı isə o idi ki, bu uşağın musiqidən başqa qalan sahələrdə inkişafı ləng gedib. Onun leksionunda yalnız yüz söz olub. O, yeddi yaşında olarkən məhşur pianoçu kimi dünyasını dəyişib.

1917-ci ildə anadan olan fransız Jan Lui Kardiak üç aylığında bütün əlifbanı bilib. Üç yaşında ikən bütün kitabları latın dilində oxuyan bu vunderkind dörd yaşında ingilis dilində danışmağa başlayıb və yeddi yaşında Parisdə vəfat edib.

1945-ci ildə anadan olan italiyalı Sianella De Marko yeddi yaşında orkestrin dirijoru olub. Artıq səkkiz yaşında onun repertuarında Beber, Haydi, Vaqner, Bethovenin əsərləri və Avropanın məşhur orkestrləri ilə iş təcrübəsi olub.

Volfhanq Amadey Motsart 4 yaşında ikən fortepianoda özünün ilk konsertini verib. Üstəlik, bu konsert elə mürəkkəb olub ki, Avropanın tanınmış fortepianoçuları onun musiqilərini ifa etməyə çətinlik çəkiblər. Bu vunderkind artıq 6 yaşında ikən royalda Avstriya-Macarıstan kraliçası Mariya Terezanın qarşısında çıxış edib.

Böyük fransız fiziki və riyaziyyatçısı Andre Mari Amper (cərəyanın gücü onun adı ilə adlandırılıb) artıq 11 yaşında olanda riyaziyyatda çox irəli gedib. O, fransız astranomu Jozef Lui Laqranjın məhşur "Atlantik Mexanika" adlı traktatında yer alan çox mürəkkəb məsələləri həll edib.

Fransız filosofu və riyaziyyatçısı olan Blez Paskal uşaqlıq vaxtlarından qeyri- adi istedada malik olub. O, hələ 12 yaşında ikən akustika üzrə tezislər yazıb. Paskal 19 yaşında ilk hesablayıcı maşını kəşf edib.

Sovet fiziki, Nobel mükafatı laureatı olan Lev Davidoviç Landau orta məktəbi 13 yaşında əla qiymətlərlə bitirib, 14 yaşında ikən, o, artıq universitetdə eyni zamanda iki fakültədə təhsil alıb. Bu fakültələr fizika-riyaziyyat və kimya fakültələri olub.

Koreyalı vunderkind Kim Unq-Yonq ən yüksək IQ göstəricisi ilə Ginnesin rekordlar kitabına adını yazdırıb. O, iki yaşında artıq iki dil bilib, 4 yaşında isə ən çətin riyazi misalların öhdəsindən gəlib. 8 yaşında NASA-dan təklif alıb və oxumaq üçün Amerikaya köçüb.

**N. MƏMMƏDLİ**

# Su pəriləri mövcuddur

**Uşaq vaxtı nağıllarda oxuduğumuz, cizgi filmlərində gördüyümüz, xəyallarımızda təsəvvür etməyə çalışdığımız su pəriləri mövcuddurmu?**



Elm adamları da bu suala cavab tapmağa çalışırlar.

Bu yaxınlarda Amerika Birləşmiş Ştatlarının Milli Okean və Atmosfer Araşdırmaları Mərkəzi sensasiyalı bəyanatla çıxış edib. Mərkəzin əməkdaşları yer kürəsində su pərilərinin mövcudluğunu təsdiqləyiblər. Taiti sahillərində 65 elm adamının apardığı araşdırmalardan sonra alimlər balıq quyruqlu insan hibridinin hətta insanların arasında da yaşaya biləcəyini ehtimal edirlər. Araşdırma müəllifləri su pərilərinə daha çox isti su hövzələrində, xüsusilə, Karib və Aralıq dənizi sahillərində rast gəlindiyini bildirirlər.



İlham MƏMMƏDOV

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Морской протест — Dəniz protesti — SEA PROTEST

Заявление, которое делается капитаном судна, в случае если в период плавания или стоянки судна имело место происшествие, которое может явиться основанием для предъявления к судовладельцу имущественных требований. Заявление о морском протесте должно содержать, насколько это возможно, полную информацию относительно обстоятельств происшествия и причин, вызвавших его, в том числе информацию о мерах, принятых капитаном для обеспечения сохранности вверенного ему имущества. В подтверждение изложенных в заявлении обстоятельств капитан судна обязан представить лицу, оформляющему протест, судовой журнал на обозрение. Если капитан не имел возможности заявить протест в установленный срок, он обязан в заявлении о морском протесте указать причину задержки. При наличии оснований предполагать, что в результате происшествия причинен ущерб находящемуся на судне грузу, заявление о морском протесте должно быть сделано до открытия грузовых трюмов. Выгрузка находящегося на судне груза до заявления морского протеста может быть начата только в случае крайней необходимости.

Заявление о морском протесте делается: в портах стран СНГ - нотариусу или иному должностному лицу, на которое законодательством возложено совершение нотариальных действий; в иностранных портах - должностному лицу консульского учреждения или компетентному должностному лицу данного государства. Эти лица составляют акт о морском протесте и заверяют его своей подписью и печатью. Морской протест является одним из видов документов, который должен быть проверен в суде или арбитраже.

Əgər gəminin üzdüyü və ya dayandığı dövrdə gəmi sahibinə qarşı əmlak tələblərini irəli sürmək üçün əsas ola bilən hadisə baş veribsə, gəmi kapitanı tərəfindən verilən bəyanat. Dəniz protesti haqqında bəyanat hadisənin baş verdiyi şərait və yaranma səbəbləri, habelə kapitana etibar olunmuş əmlakın qorunub saxlanmasını təmin etmək üçün onun gördüyü tədbirlər barədə mümkün qədər tam məlumatı əhatə etməlidir. Bəyanatda ifadə edilmiş halların təsdiqlənməsi üçün gəmi kapitanı dəniz protestini tərtib edən şəxsə tanış olmaq üçün gəmi jurnalını təqdim etməyə borcludur. Əgər kapitan müəyyənləşdirilmiş müddətdə protesti bəyan etmək imkanına malik olmayıbsa, o, dəniz protesti haqqında bəyanatda gecikmə səbəbini göstərməyə borcludur. Baş vermiş hadisə nəticəsində gəmidəki yükə zərərin vurulduğunu güman etmək üçün əsaslar olduqda, dəniz protesti haqqında bəyanat yük anbarları açılanadək verilməlidir. Dəniz protesti haqqında bəyanat veriləndək gəmidəki yükün boşaldılması yalnız son dərəcə zərurət olduqda həyata keçirilə bilər.

Dəniz protesti haqqında bəyanat: MDB ölkələrinin limanlarında – notariusa və ya qanunvericiliklə notariusun vəzifəsini icra etmək səlahiyyətinin verildiyi digər vəzifəli şəxsə, xarici limanlarda – konsulluq idarəsinin vəzifəli şəxsinə və ya xarici dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bu dövlətin səlahiyyətli vəzifəli şəxsinə verilir. Həmin şəxslər dəniz protesti haqqında akt tərtib edir və onu öz imzaları, möhürləri ilə təsdiqləyirlər. Dəniz protesti məhkəmədə və ya arbitrajda yoxlanılmalı olan sənəd növlərindən biridir.

### Морское страхование — Dəniz sığortası — MARINE INSURANCE

Наиболее сложная составная часть имущественного страхования. Охватывает страхование судов, грузов и фрахта. Морское страхование состоит из трех основных видов страхования: страхование КАСКО, страхование груза и страхование ответственности судовладельцев. Имеет своей целью возмещение ущерба, причиненного страхователю гибелью или повреждением объекта во время следования по морскому пути, с которым связан его имущественный интерес: судно, перевозимый груз, фрахт, плата за проезд, арендная плата, ожидаемая от продажи груза прибыль и иные требования, обеспечиваемые судном, грузом и фрахтом, заработная плата и иные виды вознаграждения капитана и других лиц судового экипажа, а также риск, принятый на себя страховщиком.

Əmlak sığortasının ən mürəkkəb tərkib hissəsi. Gəmilərin, yüklərin və fraxtın sığortalanmasını əhatə edir. Dəniz sığortası üç əsas sığorta növündən ibarətdir: KASKO sığortası, yük sığortası və gəmi sahiblərinin məsuliyyət sığortası. Məqsədi sığortalının əmlak marağının bağlı olduğu obyektin dənizlə yol getdiyi zaman məhvi və ya zədələnməsi ilə sığortalıya dəymiş zərərin əvəzini ödəməkdir: gəmi daşınan yük, fraxt, gediş haqqı, icarə haqqı, yükün satışından gözlənilən mənfəətin, gəminin, yükün, fraxtın təmin etdiyi digər tələblər, kapitanın və gəmi heyətinin digər üzvlərinin əmək haqqı, mükafatlandırılmanın başqa növləri, habelə sığortaçının öz üzərinə götürdüyü risk.

## H

### На усмотрение судовладельцев — Gəmi sahiblərinin mülahizəsinə — SUBJECT TO OWNERS'APPROVAL

Оговорка, которая обычно делается на документах, когда они подписываются капитаном. Эта оговорка сохраняет за судовладельцем право вернуться к этих документов после подписания капитаном.

Qeyd-şərt, adətən sənədlər kapitan tərəfindən imzalanarkən yazılır. Bu qeyd-şərt gəmi sahibinin kapitan tərəfindən imzalandıqdan sonra həmin sənədlərin baxılmasına qayıtmaq hüququnu saxlayır.

### Навалом — Tökmə yüklər — IN BULK

Транспортный термин, означает способ перевозки массовых грузов (руда, уголь, песок и т.д.) без тары. При перевозке без тары зерна применяется термин "насыпью".

Nəqliyyat termini, kütləvi yüklərin (filiz, kömür, qum və s.) qablaşdırılmadan, yəni tarasız daşınmasını bildirir. Taxıl tarasız daşınarkən «səpməklə» termini tətbiq edilir

### Навигационная ошибка — Naviqasiya səhvi — NAVIGATIONAL ERROR

Неверные действия или упущения капитана судна, прочих лиц судового экипажа и лоцмана в судовождении или управлении судном, приведшие к утрате либо повреждению груза. Ошибка в судовождении может выразиться в неправильном определении координат судна, нарушении правил предупреждения столкновения судов. Ошибка в управлении обычно связана с эксплуатацией различных судовых систем. Например, повреждение груза в результате проникновения в трюм воды будет считаться ошибкой в управлении, если это произойдет в связи с неправильными действиями члена экипажа. К навигационной ошибке не относятся ошибки или небрежность, которые явились нарушением основной обязанности перевозчика по приведению судна в мореходное состояние и допущены по отношению к судну или его механизмам. Согласно Международной Конвенции по унификации некоторых правил, касающихся коносаментов, перевозчик не отвечает за потери или убытки, возникшие вследствие навигационной ошибки или явившиеся ее результатом. Однако он освобождается от ответственности только перед своим контрагентом по договору перевозки. Если в результате навигационной ошибки произойдет столкновение с другим судном, перевозящим груз, то владелец судна не будет освобожден от ответственности перед владельцем этого груза за неверные действия своего капитана и иных служащих на судне.

Gəmi kapitanının, gəmi heyətinin digər üzvlərinin və dəniz bələdçisinin gəmi sürücülüyündə, gəmini idarəetmədə yükün itirilməsinə və ya zədələnməsinə gətirib çıxarmış yanlış hərəkətləri, nöqsanları. Gəmi sürücülüyündə səhv gəminin olduğu yerin qeyri-düzgün müəyyənləşdirilməsində, gəmilərin toqquşmasının qarşısının alınması qaydalarının pozulmasında özünü biruzə verə bilər. Gəminin idarə olunmasında səhv adətən müxtəlif gəmi sistemlərinin istismarı ilə bağlıdır. Məsələn, əgər heyət üzvünün qeyri-düzgün hərəkətləri ilə bağlı tutuma su axması nəticəsində yük korlanıbsa, bu, idarəetmədə səhv sayılacaqdır. Gəminin dəniz üzgüçülüyü üçün yararlı vəziyyətə gətirilməsi üzrə daşıyıcının əsas öhdəliyinin pozulması hesab edilən və gəmiyə, yaxud onun mexanizmlərinə münasibətdə yol verilmiş səhvlər və ya etinasızlıq naviqasiya səhvinə aid edilmir. Konosamentlərə dair bəzi qaydaların unifikasiya edilməsi üzrə Beynəlxalq Konvensiyaya əsasən, daşıyıcı naviqasiya səhvi və ya onun nəticəsində baş verən itkiyə, zərərə görə cavabdeh deyil. Lakin o, yalnız yükdaşıma müqaviləsi üzrə öz kontragenti qarşısında məsuliyyətdən azad edilir. Əgər naviqasiya səhvi nəticəsində yük daşıyan digər gəmi ilə toqquşma baş verərsə, gəmi sahibi bu yükün sahibi qarşısında öz kapitanının və gəmidə xidmət edən digər heyət üzvlərinin qeyri-düzgün hərəkətlərinə görə məsuliyyətdən azad edilmir.

### Надбавка за перегруженность порта — Limanda işin çoxluğuna görə əlavə haqq — SURCHARGE OF CONGESTION

Надбавка к фрахту, которая начисляется тогда, когда судно идет под грузовые операции в порт, где из-за большого скопления судов приходится долго простаивать в ожидании причала и грузовых операций.

Fraxta əlavə edilən məbləğ, bu məbləğ o zaman hesablanır ki, gəmi yük əməliyyatlarının icrası üçün limana gedib, orada çox sayda gəminin toplandığından uzun müddət körpünü və yük əməliyyatlarını dayanıb gözləməli olur.

*(Davamı var)*

# "Üzən kəndlər" inşa ediləcək

**Niderland krallığında üzən evlər daha çox suyun qalxması ilə əlaqədar inşa olunur. Böyük Britaniyada isə üzən evlərin tikintisinə səbəb tam başqadır. Londonda insanların yaşaması üçün yer tükənir.**



Bu səbəbdən də Şərqi Londondakı keçmiş doklarda yerüstü və su sahələri də daxil olmaqla kəndlər salmaq qərarına gəliblər.

Yeni "üzən kəndlər"in layihələndirilməsində Niderlanddan olan ekspertlər iştirak edirlər. Kəndə 50 üzən ev, həmçinin restoranlar, ofislər, mağazalar və hətta üzən hovuz da daxil olacaq.

Üzən yol isə on minlərlə yeni evlərdən ibarət böyük quru sahəsinə gediş-gəlişə imkan verəcək.

Əvvəllər Kral dokları kimi məşhur olan rayon hər gün özündən yüzlərlə yük və sərnişin gəmiləri buraxırdı. Bu doklardan üçü dünyada ən böyük qapalı dok idi: onlara 250 akr su və 1000 akrdan çox quru sahəsi daxil idi və Londondakı istənilən başqa limandan daha intensiv istifadə olunurdu. Amma artıq neçə on ildir ki, onlardan istifadə edilmir və məhz buna görə həmin yerdə "üzən kənd"in tikilməsi planlaşdırılır.

# Pul barədə çox fikirləşməyin

**Honkonqlu alimlər (ÇİN) pulun və pullu olmaq barədə fikirlərin insana necə təsir göstərdiyini müəyyən ediblər.**



Mütəxəssislər tədqiqat zamanı belə bir ehtimalı təsdiq ediblər: insanın xudbin və qaradinməz olması üçün onun pul barədə düşünməsi yetərlidir. Sən demə, sadəcə pul barədə düşünmək belə, insanın davranışını kəskin dəyişdirə bilər.

Alimlər Afrikanın yoxsul ölkələri - Somali və Zimbabvedə iki qrup könüllü üzərində eksperiment aparıblar. Qruplardan birinin üzvlərinə əvvəlcədən pul əskinaslarının və metal pulların təsvirlərini göstəriblər. Tədqiqatın nəticələri göstərib ki, bu qrupa daxil olan könüllülər emosiyalarını gizlətməyə və qaradinməz olmağa daha çox meyilli olublar. Qeyd edək ki, alimlərin gəldiyi qənaət əvvəllər bu mövzuda aparılmış eksperimentlərlə səsləşir. Məsələn, Minnesota Universitetinin professoru Ketlin Vos öz elmi işində göstərib ki, pul barədə fikirlər insanları ətrafdakılardan uzaqlaşdırır. Nəticədə onlar kənardan kömək qəbul etməyə və başqalarına yardım göstərməyə az meyilli olurlar.



## YARIZARAFAT, YARIGERÇƏK

- İndiki zəmanədə lap beynəlxalq standartlara cavab versə də, hər kəsin ipinin üstündə odun yığmaq olmur.
- Yuxarıda bığ, aşağıda saqqal olmasa da, ən azı antisanitariya baxımından tüpürmək yaxşı deyil.
- Kim nə danışır-danışsın və nə qədər istəyir danışsın. Sən iş gör və işini yaxşı gör. Gördüyün iş səndən hamıdan yaxşı danışacaq.
- Uşaq vaxtı qulağı yaxşı çəkilməyən, böyüyəndə daha çox qulaqkəsən olur.
- Yalanın növbəti yalanı dartıb gətirmə gücü məlum güclərin ən güclüsüdür.
- Bəzi rəhbərlər qatil olmaq istəmədiklərindən vəzifə üçün ölənlərə vəzifə verirlər?
- Bəzi adamlara baxanda bir də baxmaq istəyirəm. Nadir nüsxələrə oxşayırlar.
- Siz Allah, mənim yanımda heç nə danışmayın. Qorxuram ki, sizi də tanıyam.
- Dünyanın işinə bax e... Bir işi öz axarı ilə getmir.
- Yıxılanı balta ilə vuran çox olur. Bəlkə sən başqa şeylə vurasan?
- Niyə, bəziləri işinə görə deyil, iştahasına görə əmək haqqı istəyir?
- Əlini ağdan-qaraya vurmayanlar adətən təmiz yox, tənbəl adamlar olur.
- Günah yaxşı şey olsaydı, günahlarını boynuna almaq üçün indi hamı növbəyə düzülmüşdü.
- Sevunc ömrü uzadır deyə, başqasının pis günündə də sevinmək olmaz ki!
- Uşaqlar bizim gələcəyimiz olduğu üçün çox adam ancaq və ancaq özündən böyüklərin gözündə yaxşı olmağa çalışır?
- İgidliyə gərək olmayan yerdə "igidə" dönən çox olur.
- Pulun əsiri olmaqdansa, sahibi olmaq yaxşıdır.

*Rasif TAHİROV*

## "DƏNİZ"İN GÜLÜŞ PAYI

- Ər arvada deyir:

- Mən gələn bazar gününə teatra bilet almışam. Bəlkə indidən geyinməyə başlayasan ki, heç olmasa ömründə bir dəfə gecikməyəsən?

***

- Sizin itiniz mənə çox qəzəbli baxır.

- Narahat olmayın, o, onun qabından yemək yeyənlərə həmişə elə baxır.

***

- Bəlkə təzə daraq alım? Köhnənin dişi düşüb.

- Bədxərc olma! Bir dişə görə təzə daraq alarlar?

- Yox, amma bu, darağın axırıncı dişi idi.

***

- Alo, Kreml? Mən hökumətdə işləmək istəyirəm.

- Nə, sizin başınız xarab olub?

- Bu, mütləq şərtdir?

***

- Nə olub, fikirlisən?

- Pasportumu oğurlayıblar.

- Milis idarəsinə müraciət etmisən?

- Getmişdim. Onlar götürməyiblər.

***

- Nənəcan, sizi müayinə etdim, sağlamsınız. Deyin görək, şikayətiniz nədəndir?

- Boğuluram.

- Nə vaxt?

- Avtobusun arxasınca qaçanda.

***

- Baxışlarınız çox soyuqdur...

- Necə olmalıdır ki? Sağ gözüm - mənfi beş, sol gözüm - mənfi yeddidir.

***

Möhkəm yuxu qocalmağın qarşısını alır. Xüsusilə sükan arxasında yatanda.

***

İdeal qız kimi harada susmaq lazım gəldiyini çox yaxşı bilirəm. Bilirəm. Amma əfsus ki, susa bilmirəm.

**Rus dilindən çevirdi: Tahir DADAŞOV**

## Gələcəyin dünya və olimpiya çempionları



## Dünya okeanı resurslarının təxmini dəyəri 24,2 trilyon dollardır

Dünya vəhşi təbiət fondu (WWF) Dünya okeanının resurslarının dəyərini minimum 24,2 trilyon dollar həcmində qiymətləndirib. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, fondun press-relizində hesablamanın dəqiq olmadığı qeyd edilir. Belə ki, bəzi resursları pul ekvivalentinə çevrimək sadəcə olaraq mümkün deyil. Okeanlar hər il təxminən 2,5 trilyon dollar həcmində xidmət və məhsul "təqdim edir". Bu vəsait Dünya okeanının ümumi daxili məhsulu kimi götürülər-



sə, bu halda o, iqtisadiyyatına görə ABŞ, Çin, Yaponiya, Almaniya, Fransa və Böyük Britaniyadan sonra yeddinci yeri tutacaq. Hazırda Dünya okeanı tullantılar, həddən artıq balıq ovu, bir çox balıq və heyvan növünün yaşayış mühitinin dağıdılması, həmçinin suyunun temperaturunun və turşuluğunun artması səbəbi ilə ağır vəziyyətə düşüb. Bu da mərcanların və midiyaların skeletlərinin dağılmasına səbəb olur. Mütəxəssislərin hesablamalarına görə, okeanın temperaturu hazırkı templərlə artmaqda davam edərsə, məsələn, mərcan rifləri 2050-ci ilədək tamamilə yoxa çıxacaq.

## "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI

**Aşağıda göstərilən ixtisaslar üzrə 2015-ci il üçün doktoranturanın qiyabi şöbəsinə qəbul**

# ELAN EDİR:



1. 3319.03 - "Gəmiqayırma və gəmi təmiri texnologiyası"
   Doktorant proqramı üzrə - 1yer
2. 3319.01 - "Gəmiçilik texnikası"
   Doktorant proqramı üzrə - 2yer;
   Dissertant proqramı üzrə - 1yer
3. 3319.02 - "Gəmiçilik və su nəqliyyatının istismarı"
   Dissertant proqramı üzrə - 1yer

***Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:***

- ərizə (Azərbaycan Dövlət Dəniz Akademiyasının rektorunun adına);
- tərcümeyi-hal;
- 3 ədəd fotoşəkil (3x4sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti;
- şəxsiyyəti təsdiq edən sənədin surəti

Doktoranturaya qəbul imtahanları aşağıdakı fənlər üzrə aparılır:

· İxtisas
· Fəlsəfə
· Xarici dil (TOEFL proqramı üzrə ən azı 80 bal və ya İELTS proqramı üzrə ən azı 6,5 bal toplanması barədə sertifikatı təqdim edənlər imtahandan azaddırlar).

**Sənədlər 06.11.2015-ci il tarixədək Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 18 ünvanında yerləşən Azərbaycan Dövlət Dəniz Akademiyasının əsas binasında (207-ci otaqda) qəbul olunur.**

***Əlaqə telefonu: (012) 493-36-44 (daxili 113); (012) 493-63-07***

**REKTORLUQ**

## Beş dəqiqə qaçın ki...

**Ayova Universitetinin alimləri müəyyən ediblər ki, tonusu dəstəkləmək və uzunömürlülük üçün gündə cəmi 5 dəqiqə qaçmaq kifayət edir.**



Araşdırmada yaşları 18-dən 100-ə qədər 55 min könüllü iştirak edib. Məlum olub ki, qaçış həvəskarlarının ölüm riski 30%, ürək-damar xəstəliklərindən ölmək ehtimalları isə 45% azdır. Prinsipcə hamımız bilirik ki, fiziki aktivlik sağlamlıq üçün faydalıdır. Ancaq bu araşdırmada maraqlı cəhət ayrıdır. Alimlər aşkar ediblər ki, hətta qısa məşqlər də orqanizmi tonusda saxlayır. Misal üçün, cəmi beş dəqiqə qaçmaq insan ömrünü 3 il uzadır. Əgər kiminsə qaçmaqdan xoşu gəlmirsə, ona velosiped sürmək tövsiyə edilir. İstənilən halda, kiçik fiziki məşq də sağlamlıq üçün faydalıdır.

## Allah rəhmət eləsin

Azərbaycan Dövlət Dəniz Akademiyasının rəhbərliyi və professor-müəllim heyəti Dəniz Nəqliyyatı Donanması baş mühasibinin müavini **Azər Səfərova** atası

**Hadı Mürsəl oğlu Səfərovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*BAŞ REDAKTOR*
**Rasif İman oğlu TAHİROV**

**ÜNVANIMIZ:**
**AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 22**
**TELEFONLARIMIZ**
**Baş redaktor (050) 670-33-76,**
**Redaktor (070) 252-39-02**

*Qəzetin təsisçisi*
**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir**

**Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur**

**Şəhadətnamə 271**
**Sayı 2000**
**Sifariş 110**